Ey oğlan, Bismilləh de. Sağ əlinlə ye və sənə yaxın olan yerdən ye

Ömər ibn Əbu Sələmədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir. Mən Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) himayəsində olan bir uşaq idim. Yemək yeyərkən əlim yemək qabının hər yanına dolaşırdı. Bunu görən Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə belə dedi: «Ey oğlan, Bismilləh de. Sağ əlinlə ye və sənə yaxın olan yerdən ye". Bundan sonra mənim yemək yemə tərzim Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) mənə öyrədiyi kimi oldu.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) tərbiyəsi və himayəsi altında böyüyən, xanımı Ummu Sələmənin (Allah ondan razı olsun) oğlu Ömər bin Əbu Sələmə (Allah ondan razı olsun) yemək yeyərkən yeməyi almaq üçün əlinin qabın hər tərəfində gəzib dolaşdığını və bunun üzərindən Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) ona yemək yemə ədəblərindən üçünü öyrətdiyini xəbər vermişdir. Bu ədəblər aşağıdakılardır: Birincisi: Yeməyə başlamazdan öncə: "Bismilləh" demək. İkincisi: Sağ əl ilə yemək. Üçüncüsü: Qabda yeməyin özünə yaxın olan tərəfindən yemək.

http://www.sunnah.global/hadeeth/az/show/58120